İCBARİ TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Təcili və təxirəsalınmaz hallarda **103-ə zəng edin!**

# İCBARİ TİBBİ SIĞORTA ÇƏRÇİVƏSİNDƏ TİBBİ XİDMƏTLƏRDƏN İSTİFADƏ QAYDASI

İcbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlər **ÖDƏNİŞSİZDİR**.

Hər bir vətəndaş səhhətində narahatlıq hiss etdikdə tibbi xidmətdən yararlanmaq üçün şəxsiyyət vəsiqəsi ilə TƏBİB-in tabeliyində olan istənilən dövlət tibb müəssisəsinə müraciət edə bilər.

Tibb müəssisəsində vətəndaş ixtisaslı həkim tərəfindən qəbul edilir.

Müayinənin nəticəsinə görə ixtisaslı həkim tərəfindən vətəndaşa:

- Təxirəsalınmaz ambulator/stasionar
- Təcili ambulator/stasionar
- Planlı ambulator/stasionar müalicə təyin edilir

Təcili və təxirəsalınmaz hallarda vətəndaşa dərhal tibbi xidmət göstərilir.

Planlı ambulator/stasionar müayinə və müalicə üçün isə vətəndaşa göndəriş vərəqəsi verilir.

Xəstəxanada müayinə və müalicəsi başa çatan vətəndaşa ailə həkiminin nəzarəti məsləhət görülür.



Vətəndaşa TƏBİB-in tabeliyindəki tibb müəssisələrində Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətin göstərilməsi mümkün olmadığı halda, ona İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqaviləsi olan özəl tibb müəssisəsinə xidmət almaq üçün göndəriş vərəqəsi verilir.

Ətraflı məlumat üçün **QR kodu** oxudun

its.gov.az

1542 ÇAĞRI MƏRKƏZİ